

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 211 (23.853)

*13 noyabr 2021-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə görüşündə iştirak etmək üçün Türkiyə Respublikasına səfər edib. Dövlətimizin başçısı səfər çərçivəsində noyabrın 12-də İstanbulda Qırğız Respublikasının Prezidenti Sadır Japarovla görüşüb, prezidentlər görüşdə çıxış ediblər.

Noyabrın 12-də Prezident İlham Əliyev İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının katibliyinin yeni binasının açılış mərasimində iştirak edib, türkdilli ölkələrin dövlət və hökumət başçıları binanın önündə ölkələrin dövlət bayraqlarını qaldırıb, katibliyin yeni binasının rəmzi açılışını bildirən lenti kəsiblər.

Noyabrın 12-də İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü keçirilib. Zirvə Görüşündə Türkiyə dövlətinin başçısı Azərbaycan Prezidenti İlham Əliyevə Türk Dünyasının Ali Ordenini təqdim edib. Dövlətimizin başçısı Zirvə Görüşündə çıxış edərək yüksək mükafata görə təşəkkürünü bildirib. Prezident İlham Əliyev bu mükafatın Qarabağın azad edilməsi işində göstərilən səylərə və türk birliyinin daha da güclənməsi işinə töhfələrə görə verildiyini xatırladaraq deyib: "Bu, türk dövlətləri tərəfindən mənim işimə, mənim fəaliyyətimə verilən çox yüksək mükafatdır, yüksək qiymətdir. Buna görə də mən bütün Azərbaycan xalqı adından çox dərin təşəkkürümü bildirirəm. Çünki mən belə zənn edirəm ki, bu mükafat bütün Azərbaycan xalqına verilmiş mükafatdır".

## 12 noyabr – Konstitusiya Günü qeyd olunub

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin təşkilatçılığı və Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və hüquq fakültəsinin tələbələrinin iştirakı ilə 12 noyabr – Konstitusiya Gününə həsr olunmuş "Azərbaycanın ilk müstəqil Konstitusiyası və Naxçıvan Muxtar Respublikasının Konstitusiyası" mövzusunda açıq dərs keçilmişdir.

Açıq dərsi giriş sözü ilə açan mərkəzin elmi katibi Nihad Tarverdiyev tələbələrə mərkəz haqqında ümumi məlumat vermişdir.

Diqqətə çatdırılmışdır ki, Azərbaycanın ilk müstəqil Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuşdur. Müstəqil Azərbaycanın ilk Konstitusiyası Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını qoymuşdur. 1996-cı il fevralın 6-da ulu öndər Heydər Əliyevin Sərəncamı ilə noyabrın 12-si Konstitusiya Günü elan edilmişdir.

Vurğulanmışdır ki, tarixən Naxçıvanın müasir dövlətçilik institutlarının formalaşmasında özünəməxsus idarəçilik ənənələri mövcud olmuşdur. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası 1998-ci il aprelin 28-də birinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 5-ci sessiyasında qəbul edilmiş, Azərbaycan Respublikası Milli Məclisinin 30 iyun və 29 dekabr 1998-ci il tarixli iclaslarında təsdiq edilmişdir. 1999-cu il yanvarın 8-dən qüvvəyə minmişdir.

Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyası preambula ilə başlayaraq Naxçıvan muxtariyyətinin həm beynəlxalq hüquqla, həm də daxili hüquqla tənzimlənən aktlarını sadalamaqla Naxçıvanın məxsus olduğu zəngin dövlətçilik və muxtariyyət tarixinə qısa nəzər salır. Azərbaycanın əsas hissəsindən aralı düşən, düşmən əhatəsində eksklav halında mövcudiyyətini sürdürən Naxçıvan Muxtar Respublikası da Azərbaycanın vahid dövlətçilik siyasətinin istənilən istiqamətinin ümumi qaydada aparılmasını həm Azərbaycan Respublikasının Konstitusiyası, həm də Naxçıvan Muxtar Respublikası Konstitusiyası da qəti müəyyənləşdirir.

Açıq dərsin sonunda mərkəzdə yaradılan sərgilərə, həmçinin mərkəzin çap materialları fonduna baxış olmuş, tələbələrin sualları cavablandırılmışdır.

* * *

Naxçıvan Dövlət Universitetində keçirilən tədbirdə giriş sözü ilə çıxış edən ali təhsil müəssisəsinin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov diqqətə çatdırıb ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və 1995-ci il noyabrın 12-də referendum yolu ilə keçirilərək qəbul edilən Konstitusiya müstəqil Azərbaycanın ilk, ümumilikdə isə ölkəmizin tarixində dördüncü Konstitusiyasıdır. Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biridir.



Hüquq fənləri kafedrasının baş müəllimi Yunis Xəlilov, Hüquqşünaslıq ixtisası üzrə II kurs tələbəsi Aynur Məmmədova çıxışlarında bildiriblər ki, Azərbaycanın qanunvericilik sisteminin əsasını təşkil edən, Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olan Konstitusiya ölkədə siyasi sabitliyin, ictimai sülhün və milli barışığın qarantı kimi çıxış edir, hüquqi-siyasi münasibətlər sisteminə və hüquq düşüncəsinə əhəmiyyətli təsir göstərir.

Sonda Naxçıvan Dövlət Universiteti Televiziyasının hazırladığı videoçarx nümayiş etdirilib.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda ilk dəfə dövlət teleradio və mətbuat orqanlarında işə qəbul üçün esse imtahanı keçirilib

Naxçıvan Muxtar Respublikasında dövlət mətbuat orqanlarının fəaliyyətinin gücləndirilməsi və kadr ehtiyacının təmin edilməsi üçün mütəmadi tədbirlər həyata keçirilir. "Naxçıvan Muxtar Respublikasının dövlət teleradio və mətbuat orqanlarına işə qəbul Qaydaları"nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 30 mart tarixli Qərarı ilə mətbuat orqanlarına işə qəbulun esse imtahanı ilə keçirilməsi bu məqsədə xidmət edir. Eyni zamanda dövlət orqanlarında mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi vəzifələrinin tutulması üçün də esse imtahanı keçirilir.

Esse imtahanında namizədin ümumi dünyagörüşü, bacarıq, təcrübə və şəxsi keyfiyyətlərinin müvafiq vakansiyaya uyğunluğu kağız daşıyıcılar üzərində esse tipli tapşırıqlar vasitəsilə yoxlanılır. Namizədlərə esse tapşırığın yerinə yetirilməsi üçün 1 saat 30 dəqiqə vaxt verilir.

İmtahanda iştirakçılara müstəqil mühakimə yürütmək və əsaslandırmaq bacarığını nümayiş etdirməyə imkan verən "Naxçıvan müstəqillik və dövlətçilik tarixində" mövzusu təqdim olunub. Müsabiqə komissiyası namizədlərin ixtisas bacarığını mövzunun əhatə olunması və faktlara istinad, üslub, namizədlərin fikirlərini məntiqi ardıcıllıqla ifadə etmək, abzaslarla fərqləndirmək, ümumiləşdirmə və məntiqi nəticə çıxarma qabiliyyətləri, fikir və düşüncələrini anlaşıqlı, ədəbi dilin normalarına uyğun şəkildə ifadə etmə meyarları, orfoqrafik qaydalara riayət və yaradıcılıq qabiliyyəti baxımından qiymətləndirir. Esse imtahanında 80 və daha çox bal toplamış namizəd müsahibə mərhələsinə buraxılır.



Dövlət teleradio və mətbuat orqanlarında vakant vəzifələrin tutulması üçün ilk dəfə keçirilən müsabiqədə iştirak etmək üçün 10, mətbuat və ictimaiyyətlə əlaqələr üzrə vakant vəzifələrin tutulması üçün esse mərhələsində iştirak etmək üçün 4 namizəd sənəd təqdim edib. Onlardan mətbuat orqanları üzrə 9, baş məsləhətçi vəzifələri üzrə isə 4 namizəd imtahanda iştirak edib.

Esse imtahanının nəticələrinə əsasən dövlət teleradio və mətbuat orqanlarında vakant vəzifələrin tutulması üçün müraciət edən namizədlərdən 5-i, baş məsləhətçi vəzifəsini tutmaq üçün müraciət edən namizədlərdən isə 2-si keçid balını toplayaraq müsahibə mərhələsində iştirak etmək hüququ qazanıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## Torpaqların su təminatı yaxşılaşdırılır



***Muxtar respublikada müasir suvarma sistemlərinin quraşdırılması və suvarma suyundan səmərəli istifadə olunmasına nəzarət həyata keçirilir, su təsərrüfatı sistemlərinin istismarının yaxşılaşdırılması diqqətdə saxlanılır.***

Əkin sahələrinin suya olan tələbatını ödəmək üçün oktyabr ayında bir sıra tədbirlər görülmüş, su istifadəçilərinə 5,53 milyon kubmetr su verilmiş, bunun müqabilində 4 min 549 hektar torpaq sahəsi suvarılmışdır. Ay ərzində 15,4 kilometr beton və torpaq kanal, 23,2 kilometr ara arx və 1,9 kilometr kollektor lildən təmizlənmiş, 5,56 kilometr uzunluğunda yeni suvarma boru xətti çəkilmişdir. 1,31 kilometr suvarma,1,93 kilometr təzyiqli boru və 0,15 kilometr qapalı drenaj xəttində təmir-bərpa işləri aparılmışdır. Ötən ay Şərur, Babək və Sədərək rayonlarında, ümumilikdə, 43 hektar torpaq sahəsinin meliorativ vəziyyəti yaxşılaşdırılmışdır.

Muxtar respublikada su təminatının yaxşılaşdırılmasında subartezian quyularının və kəhrizlərin də gücündən geniş istifadə olunur. Ötən ay 50 subartezian quyusunda təmir-bərpa işləri aparılmış, 4 yeni subartezian quyusu istifadəyə verilmişdir. 1 kəhrizdə təmir-bərpa işləri başa çatdırılmış, 5 kəhrizdə işlər davam etdirilmişdir.

Oktyabr ayında həyata keçirilən tədbirlər sırasında əhalinin keyfiyyətli və dayanıqlı içməli su ilə təmin olunması, yaşayış məntəqələrində müasir kanalizasiya şəbəkələrinin qurulması da diqqətdə saxlanılmış,1656 metr yeni içməli su, 288 metr yeni kanalizasiya xətti çəkilmiş, 2 min 354 metr içməli su və 214 metr kanalizasiya xəttində isə təmir-bərpa işləri aparılmışdır. Culfa və Ordubad rayonlarının kaptajlarının 230 metr hissəsində təmir-bərpa işləri aparılmış, Ordubad rayonunda 100 metr uzunluğunda yeni kaptaj tikilmişdir.

Babək rayonu ərazisində Əshabi-Kəhf yolunun kənarındakı yaşıllıq zolaqlarının suvarma suyu ilə təminatını yaxşılaşdırmaq məqsədilə 2,47 kilometr təzyiqli boru xətti quraşdırılmışdır.

Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 364 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi başa çatdırılmışdır. Şahbuz rayonunun Külüs, Mahmudoba və Nursu kəndlərinə aid 340 hektar torpaq sahəsində isə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmişdir. Kəngərli rayonunun Böyükdüz kəndinin əkin sahələrini suvarma suyu ilə təmin etmək məqsədilə Araz çayından qidalanan yeni nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi davam etdirilərək sahələrdə hamarlama işləri, nasos stansiyası binasının tikintisi davam etdirilmiş, 0,47 kilometr təzyiqli boru xətti quraşdırılmışdır.

2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə verilmiş tapşırıqların icrasının təmin olunması məqsədilə cəmiyyətdə hazırlanmış tədbirlər planına uyğun işlər davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

*Şərabçılıq bir çox xalqların süfrə mədəniyyətində önəmli yerlərdən birini tutur. Ölkəmizin təbii-coğrafi şəraiti də üzümçülük üçün münbit sayıldığından burada şərabçılığın inkişafı tarixən diqqət mərkəzində olmuşdur. Azərbaycanda yetişən üzüm və ondan alınan şərablar bütün dövrlərdə yüksək qiymətləndirilmişdir. Məsələn, 1886-cı ildə Tiflisdə nəşr edilmiş “Vinodeliye na Kafqaze” (“Qafqazda şərabçılıq”) adlı iqtisadi oçerkdə qeyd olunur ki, düzgün hazırlanıb saxlanılarsa, Azərbaycan şərabları müvəffəqiyyətlə Fransanın Bordo şərabını əvəz edə bilər.*

*Ailə təsərrüfatlarımız*

# Üzümçülüyün inkişafı şərabçılıq ənənələrinin də davam etdirilməsinə geniş imkanlar açıb

Naxçıvan Muxtar Respublikasının ərazisi də hər zaman üzümçülük üçün münbit sayılıb. 1727-ci il “Naxçıvan sancağının müfəssəl dəftəri”ndə əhalinin mühüm məşğuliyyəti kimi üzümçülük haqqında hərtərəfli məlumat verilir. Eyni zamanda çar Rusiyası dövrünə aid mənbələrdə Naxçıvanda geniş üzüm sahələrinin olduğu haqqında məlumatlar var. Lakin muxtar respublikada üzümçülüyün əsas inkişafı ümummilli lider Heydər Əliyevin 1969-cu ildə ölkəmizə rəhbərliyə gəlişindən sonra olmuşdur. Görkəmli dövlət xadiminin rəhbərliyi ilə ölkəmizin bir çox regionlarında, o cümlədən muxtar respublikada üzüm sahələrinin həcmi genişləndirilmiş, 1981-ci ildə Naxçıvanda 103 min 543 ton məhsul tədarük edilmişdir. Ancaq bütün bunlara baxmayaraq, SSRİ-də M.S.Qorbaçovun hakimiyyətə gəlməsi alkoqolizmlə mübarizə pərdəsi altında Azərbaycanda üzüm plantasiyalarının da vəhşicəsinə dağıdılmasına səbəb olmuşdur.

Üzümçülüyün yenidən dirçəldilməsi, bu sahədəki ənənələrin bərpa edilməsi, yeni üzümlüklərin salınması müstəqilliyimizin bərpasından sonrakı dövrə təsadüf etmişdir. 2002-ci ildə “Üzümçülük və şərabçılıq haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul olunmuş, 2011-ci il dekabrın 15-də “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı” qəbul edilmiş və icrası uğurla başa çatdırılmışdır. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş muxtar respublikanın sosial-iqtisadi inkişafı haqqında, o cümlədən meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət proqramları muxtar respublikada üzümçülüyün inkişaf etdirilməsinə də geniş imkanlar açmışdır. Son illərdə Kəngərli rayonunda da üzümçülüyün inkişafı ilə bağlı mühüm addımlar atılmış, yeni üzüm bağları salınmışdır.



Bu bölgəmizdə üzümçülük sahələrinin inkişaf etdirildiyi yaşayış məntəqələrindən biri Çalxanqala kəndidir. Bu yaşayış məntəqəsinin münbit torpaqları, sakinlərin əməksevərliyi son illər burada üzümçülüyün sürətli inkişafına şərait yaratmışdır. Üzümçülüyün inkişafı isə şərabçılıq ənənələrinin də davam etdirilməsinə yeni imkanlar açmış, kənddə onlarla ailə təsərrüfatı bu işlə məşğul olmağa başlamışdır. Onlardan biri də Dünyamalıyevlər ailəsidir. Ailə başçısı Mətləb Dünyamalıyev uzun illər müxtəlif dövlət qurumlarında çalışsa da, öz təsərrüfatından ayrılmamış, zəhmətkeşliyi ilə ailəsinin dolanışığını təmin etmişdir. Son illərdə muxtar respublikamızda ailə təsərrüfatlarının fəaliyyəti üçün yaradılmış şərait onu da bu istiqamətdə daha fəal olmağa sövq etmişdir. Bir neçə il bundan əvvəl fərdi ailə təsərrüfatını quran Mətləb Dünyamalıyev muxtar respublikada keçirilən “Ailə təsərrüfatı məhsulları” festivalında iştirak etmişdir. Hətta 2019-cu ildə “Aktiv ailə təsərrüfatı” müsabiqəsinin nəticələrinə görə I yerə layiq görülmüşdür. Əməyinə verilən qiymət onu və ailə üzvlərini daha da həvəsləndirmiş, yeni nailiyyətlər qazanmağa ruhlandırmışdır.

Dünyamalıyevlər ailəsinin həyətyanı sahəsində bir çox meyvə, cəviz, badam ağacları var. Ailə üzvləri hər il satış yarmarkalarında müxtəlif meyvələrdən hazırlanmış araq, mürəbbə və kompotları alıcılara təqdim edirlər. Üzümçülük isə xüsusi diqqət göstərilən sahələrdəndir. Hazırda ailəyə məxsus 1 hektardan çox üzüm bağı var. Keçən il buradan 5 ton üzüm tədarük edilib. Ondan 200 litr üzüm arağı, 800 litr isə çaxır istehsal olunub. Ümumilikdə isə ötən il “Ailə təsərrüfatı məhsulları”nın satış yarmarkasına 400 litr çaxır, 50 litr araq çıxarılıb.

Mətləb Dünyamalıyevlə təsərrüfatı ilə bağlı bir neçə dəfə həmsöhbət olmuşuq. Bu zəhmətkeş təsərrüfatçının şərabın hazırlanması ilə bağlı fikirləri isə özünəməxsusluğu ilə seçilir. Müsahibimiz deyir ki, şərab üçün o, bağçasında sırf qara üzüm yetişdirir. Üzüm yığıldıqdan sonra yaxşıca yuyulur.



Bir gün sonra isə gilələnir və gildən hazırlanmış xüsusi qablara – küpələrə doldurulur. Tarixdən də məlumdur ki, qədim zamanlardan şərabın, ümumilikdə isə əksər ərzaq məhsullarının saxlanılması üçün gil qablar ən yaxşı vasitə hesab olunub. Beləliklə, üzüm gilələnib küpələrə doldurulduqdan sonra qabın ağzı bağlanır və yeddi gün bu vəziyyətdə saxlanılır. Bu müddət ərzində üzümün şirəsi çıxır. Bundan sonra şirə süzülür və ayrı-ayrı qablara doldurulur. Həmin qablarda ağzı açıq vəziyyətdə üzərinə nazik tənzif çəkilərək saxlanılır. Bu proses 15-20 gün davam edir və həmin müddət ərzində 2-3 dəfə süzgəcdən keçirilir və şərab hazır olur. Yaxşı çaxırın hazırlanması üçün qaydalara əməl olunmasını bildirən təsərrüfat sahibinin dediyinə görə, keyfiyyətli məhsul, ondan hazırlanacaq çaxırın da keyfiyyətli olması anlamına gəlmir. Bütün proseslər diqqətdə saxlanılmalı, gigiyenik qaydalara ciddi əməl olunmalıdır.

Təsadüfi deyil ki, Mətləb Dünyamalıyevə məxsus ailə təsərrüfatında hazırlanan üzüm şərabı alıcılar tərəfindən rəğbətlə qarşılanır. Həmsöhbətimiz deyir ki, artıq bir neçə ildir, paytaxt Naxçıvan şəhərindəki iri ticarət mərkəzlərinin əksəriyyəti, eləcə də digər müştərilərimiz bu şərabdan sifariş edirlər. O ki qaldı məhsulun qablaşdırılmasına, Mətləb Dünyamalıyev deyir ki, qablaşdırma üçün xarici ölkələrdən, əsasən, Türkiyə və Ukraynadan, eləcə də paytaxt Bakı şəhərində istehsal olunmuş müasir şüşə butulkalardan istifadə edir. Ailə təsərrüfatlarına yaradılmış şəraitin nəticəsində artıq belə şüşə qabları gətirmək çətin deyildir. Müxtəlif ölçülərdə və dizaynda istehsal olunmuş şüşə butulkalar məhsulun ticari görüntüsünə də əlavə dəyər qatır.

Hər il hazırladığı yüz litrlərlə çaxırın, araq məhsullarının alıcılar tərəfindən böyük rəğbətlə qarşılandığını bildirən Mətləb Dünyamalıyev ailə təsərrüfatları üçün nəzərdə tutulan builki satış yarmarkasına da hazırlaşdığını bildirir. Onu da qeyd edir ki, cari ildə bağdan 5 ton 800 kiloqram üzüm yığıb. İndiyədək 100 litr üzüm arağı, 1500 litr çaxır hazırlayıb. Əlavə olaraq 30 litr də alça arağı çəkib.

Bunu da əlavə edək ki, Mətləb Dünyamalıyev təsərrüfatında limon da yetişdirir. Bu sahədə də təcrübəsi olan təsərrüfatçı hazırda 30 ədəd limon ağacı olduğunu bildirir və əlavə edir ki, geniş həcmdə olmasa da, limon satışını da həyata keçirir. Qurduğu təsərrüfatın hər bir zəhmətinə qatlaşan ailə üzvləri çəkdikləri əziyyətin bəhrəsini də görürlər. Təsadüfi deyil ki, adları sadalanan məhsulun satışı üçün birbaşa təsərrüfatın özünə müraciət edənlər də çox olur. Mətləb Dünyamalıyev əldə etdiyi bütün bu uğurlara görə dövlətimizə minnətdarlığını bildirir, yaradılmış şəraitdən bundan sonra da layiqincə yararlanacağını deyir.

*Bəli, bu gün muxtar respublikamızda ailə təsərrüfatlarına böyük dövlət qayğısı göstərilir. Onlara təsərrüfatlarını yaratmaq üçün lazımi yardımlar olunur, istehsal etdikləri məhsulun satışı üçün hərtərəfli şərait yaradılır. Mətləb Dünyamalıyev kimi zəhmətkeş, öz işini bilən və sevən təsərrüfatçılar isə bu imkanlardan istifadə edərək daxili bazarın tələbatını ödəməyə çalışırlar.*

**Səbuhi HƏSƏNOV**

## Əhalinin təbii qazla təminatı diqqətdə saxlanılır

Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında yaşayış məntəqələrinin və istehsalat sahələrinin təbii qazla təminatının həyata keçirmək üçün Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində təsdiq olunmuş iş planına əsasən ardıcıl tədbirlər görülür.

Ötən ay və muxtar respublikanın şəhər və rayonlarından daxil olan müraciətlərə əsasən 90 mənzil (ev) və müxtəlif təyinatlı obyektlər qazlaşdırılmışdır ki, bunun 85-i əhali, 5-i qeyri-əhali abonentidir.

Hesabat dövründə Qaz İstismar Xidmətinə tabe şəhər, rayon qaz istismarı idarələrinin qəza-dispetçer sahələrinə ***104*** nömrəli 24 saat aktiv olan qaynar xəttinə təbii qaz istehlakçılarından qazsızması, qaztənzimləyicilərin nizamlanması, elektron sayğacların kilidə düşməsi və qəza-bərpa işlərinə görə, ümumilikdə, 1166 çağırış daxil olmuşdur. Çağırışlara vaxtında baxılmış, təbii qazın nəqli bərpa edilmişdir.

Ötən ay muxtar respublika qaz şəbəkəsində 619 qazsızması aşkarlanmış, texniki istismar və texniki təhlükəsizlik qaydalarının tələblərinə müvafiq olaraq sızmalar aradan qaldırılmışdır. Ay ərzində yeni qaz boru xətlərinin quraşdırılması, yenidənqurma, abadlıq işlərin görülməsi zamanı qaz boru xətlərinin yerinin dəyişdirilməsi, yaşayış binalarında təmir tikinti, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işlərinin görülməsi ilə əlaqədar müxtəlif diametrli polietilen və dəmir borulardan istifadə olunmuşdur.

Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil edilən qaz avadanlıqlarının istismarı və təmiri üzrə qazpaylayıcı stansiyalarının operatoru peşəsinin ixtisasartırma kursunu bitirən 10 müdavimə sertifikat verilmişdir.

Muxtar respublikada yerli qaz istismarı idarələrinin işçiləri tərəfindən qaz cihazlarından təhlükəsiz istifadə qaydaları haqqında abonentlər arasında maarifləndirmə və izahat işi aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti***

## Keyfiyyətin yüksəldilməsinə nəzarət gücləndirilib

*Muxtar respublikada fəaliyyət göstərən istehsal müəssisələrində müasir texnologiyalardan istifadə, istehsal edilən məhsulların daxili və xarici bazarlarda rəqabətədavamlı olması, eyni zamanda xidmət sahələrində yüksəkkeyfiyyətli xidmətlərin təşkili üçün müasir keyfiyyət standartlarının tətbiqi davamlı təşviq olunur. Bu istiqamətdə həyata keçirilən tədbirlər oktyabr ayında da davam etdirilmiş, məhsul göstəricilərinin standartlara uyğunluğu diqqətdə saxlanılmışdır. Ötən ay, ümumilikdə, məhsulların 56, o cümlədən qida məhsullarının 50 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya sınağı aparılmış və bu istiqamətdə nöqsan aşkar edilməmişdir.*





Bal və digər arıçılıq məhsulları gəlirliliyinə və faydalılığına görə aqrar sahədə mühüm yer tutur. Naxçıvanda bu sahənin davamlı inkişafı məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın icrası istiqamətində Kənd Təsərrüfatı Nazirliyinin, Dövlət Baytarlıq Xidmətinin, Dövlət Sığorta Xidməti publik hüquqi şəxsin və “Naxçıvan Muxtar Respublikası Arıçılar” İctimai Birliyinin nümayəndələri ilə birlikdə ötən ay Kəngərli rayonunun Çalxanqala kəndində arıçılıq məhsulları istehsalçıları ilə maarifləndirici görüşlər keçirilmiş, arıçılıq məhsullarının 3 halda laboratoriya analizi aparılmış, nəticələrin standartlara uyğunluğu müəyyən edilmiş, müvafiq standart üzrə bal məhsulunun tərkibində saxarozanın və nəmliyin yolverilən həddinə dair məlumatlar və protokollar ailə təsərrüfatlarına çatdırılmışdır.

Muxtar respublikada bütün istiqamətlər üzrə kənd təsərrüfatının inkişafına ardıcıl dövlət dəstəyi göstərilməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 29 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı”nın icrasına uyğun olaraq emal edilmiş kənd təsərrüfatı məhsullarının 18 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya analizləri aparılmış, nəticələrin standartlara uyğunluğu müəyyənləşdirilmişdir. “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın icrası istiqamətində meyvə-tərəvəz məhsullarının hesabat dövründə 11 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya sınağı aparılmış, nəticələrin standartlara uyğunluğu müəyyən olunmuşdur.

Ötən ay muxtar respublika üzrə 5 ailə təsərrüfatına istehsal etdiyi məhsulların etiketlərində məhsulun adının və digər məlumatların orfoqrafik qaydalara uyğun yazılmasını, saxlanma şəraitinin və yararlılıq müddətinin qüvvədə olan standartların tələblərinə uyğun göstərilməsini təmin etmək məqsədilə metodik köməklik göstərilmişdir. Ailə təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarətin aparılması üçün ay ərzində İqtisadiyyat Nazirliyinin əməkdaşları ilə birgə məhsullardan 11 halda nümunələr seçilərək laboratoriyaya təqdim olunmuş, sınaqların nəticələrinin standartlara uyğunluğu müəyyən edilmişdir.

Xarici bazarlara çıxış imkanlarının artırılması xüsusilə diqqət mərkəzindədir. Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında xarici bazarlara çıxış imkanına malik məhsul istehsalına diqqətin artırılması, qarşıdakı dövrdə bu imkanların bir daha araşdırılması, ixracın coğrafiyasının genişləndirilməsi üçün verilmiş tapşırıqların, “Naxçıvan Muxtar Respublikasında ixrac potensialının və ixraca dövlət dəstəyinin artırılması ilə bağlı Tədbirlər Planı”nın icrası istiqamətində muxtar respublikadan kənara məhsulların göndərilməsi və satışı üzrə fəaliyyət çərçivəsində sahibkarlıq subyektlərinin və ailə təsərrüfatlarının iqtisadi aktivliyi ardıcıl qaydada dəstəklənmiş, digər bölgələrimizdə fəaliyyət göstərən “Naxçıvan məhsulları” mağazalar şəbəkəsinə tələbata uyğun olaraq davamlı qaydada məhsulların göndərilməsi təmin edilmişdir.

Muxtar respublikada istehsal olunan alkoqollu içkilərin keyfiyyətinin diqqətdə saxlanılması üçün 2 müəssisədə istehsal olunan pivənin 1, məhsul istehsalında istifadə olunan suyun 1 halda laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartlara uyğunluğu müəyyənləşdirilmişdir.

Hesabat ayında Fövqəladə Hallar Nazirliyi və Dövlət Gömrük Komitəsi ilə birgə, ümumilikdə, 3247 qaz cihazına baxış keçirilmiş və müvafiq təhlükəsizlik sistemi ilə təmin olunmayan 21 qaz cihazının idxalına icazə verilməmişdir.

Muxtar respublikada keyfiyyət infrastrukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilməkdədir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti***

***O, əzəl gündən qəzetə könül verib, ürəyinin bağlı qapılarını yazının üzünə taybatay açıb. Qələm, vərəqlə baş-başa qalanda, qəlbinin dərinliklərindən süzülən sətirləri onlarla bölüşəndə, sanki dünyaya yenidən gəlib. Bəli, "Şərq qapısı" qəzeti deyəndə siması göz önündə canlanan Muxtar Məmmədovdan xəbər verir bu sətirlər... O, 100 yaşlı qəzetdə ömrünün 20 ilini şam kimi əridən əsl mətbuat fədaisi, həmişəyaşar mətbuatımızın salnaməsində özünəməxsus dəstxəti olan, jurnalistikada tapdanmış yollarla getməyən, cəsarətlə yeniliyə can atan kamil qələm sahibidir. Muxtar Məmmədov məsul katib kimi qəzetin məzmunlu, maraqlı, oxunaqlı dərc olunmasında, oxucuların rəğbətini qazanmasında biliyini, bacarığını, qələmini əsla əsirgəmir. Jurnalistikanın "əlifbası"ndan başlayaraq bütün qəzet janrlarında yazmağı gənc jurnalistlərə səbirlə öyrədən, onların qələmini cilalayaraq püxtələşdirən, yazılarına yaşıl işıq yandıran və çapına rəvac verən Muxtar Məmmədov hər birinin uğuruna öz övladıtək ürəkdən sevinir.***

*Yeni nəşrlər*

## "İllər, sizdə nəyim qaldı..." – deyən mətbuat fədaisinə illər nələr vermədi ki...




"Hər hansı mövzunu yetərincə, tamam-kamal öyrənəndən sonra qələmə alın, çalışın yazınız həm dərin, həm də oxunaqlı olsun. Oxucunu özünə cəlb etsin, maraqlandırsın, məlumatlandırsın. Jurnalistikada hər janrın öz yeri var, "quru", maraqsız mövzu yoxdur. Əsas məsələ necə yazmaqda, jurnalistin hər bir janrda qələmini işlətmək, sözünü sərrast, təsirli demək bacarığında, istedadındadır. Siz janrın tələbləri səviyyəsində yazılan məqalələrdən nümunə götürün və cəsarətli olun. Yəni öz sözünüzü yerində deməyi, dərin, oxunaqlı, maraqlı yazmağı öyrənin, çalışın qələminiz püxtələşsin" kimi dəyərli məsləhətləri ilə gənc jurnalistlərin yoluna işıq saçan Muxtar müəllimin qələm tutmağı öyrətdiyi, yetişdirdiyi neçə-neçə jurnalist bu gün respublikamızda müxtəlif məsul vəzifələrdə çalışır.

Mətbuat fədaisinin həssaslıqla qələmə aldığı yazılardakı canlılıq, lirika, səmimiyyət onun təbiətindən xəbər verir. Müəllifin "Şam ömrünün nağılı", "Mənim Naxçıvan dünyam", "Azadlığı istəmədik zərrə-zərrə" kitabları, oçerkləri, hekayələri, esseləri, müsahibələri onun özünəməxsus sənət taleyinin əbədi səhifələridir. Fədakar yaradıcı əməyi ilə halal sənətkar ömrü yaşayan, yüksək ziyalı mədəniyyəti ilə nüfuz qazanan, "Şərq qapısı" qəzetinin "zərgərlərindən" olan Muxtar Məmmədovun yaxın günlərdə işıq üzü görən "İllər, sizdə nəyim qaldı..." kitabı da mənəvi saflıq, həssaslıq və mərhəmət kimi insani keyfiyyətlərin təlqin olunduğu dəyərli mənbədir.

Bir nüansa toxunmadan keçmək istəmədim. Müəllifin "İllər, sizdə nəyim qaldı..." sualının cavabını bilmirəm, amma quş qanadlı illər bu mətbuat fədaisinə nələr vermədi ki... 20 il mətbuatda keçən ömür Muxtar Məmmədova neçə-neçə övladlar qazandırdı. Hansı ki bu gün muxtar respublikamıza öz töhfəsini verən həmin övladlar böyük qələm sahibinin zəhməti, səbri, əməyi və təcrübəsinin bəhrələridir. Bir də illər ona başucalığı verdi. Hansı ki ona başucalığı gətirən elə onun xeyirxah əməlləridir.

Vərəqlədikcə vərəqlənən, oxunduqca oxunan "İllər, sizdə nəyim qaldı..." kitabının hər sətri, hər misrası elə həssas duyğularla qələmə alınıb ki... Dörd fəsildən ibarət olan kitabın "Dünyada nə qədər kitab var belə..." başlıqlı bölümündə yer alan maraqlı yazılardan biri 20 ildən çoxdur ki, jurnalist kimi fəaliyyət göstərən filologiya üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanovanın müəllifi olduğu "Müasir Naxçıvan" kitabına həsr edilmiş təhlili məqalədir. Muxtar Məmmədovun "Müasir dövrün Naxçıvan ensiklopediyası" adlandırdığı kitab haqqında "Kitabda toplanılan yazılar bir tərəfdən dövlətçiliyimizin təşəkkül tapdığı Naxçıvan haqqında müəllifin həqiqi mənada "Naxçıvannaməsi"dirsə, digər tərəfdən qədim diyarımızın tarixləşdirilərək salnaməsinin yaradılması, gələcək nəslə mətbuat vasitəsilə çatdırılması baxımından böyük əhəmiyyətə malikdir" kimi fikirləri kitabın mahiyyətini aydın şəkildə ifadə edir.

Həmin fəsildə naxçıvanlı alim, şair və yazıçıların müəllifi olduğu kitablar haqqında Muxtar Məmmədovun qələmə aldığı resenziyalar oxucunu həmin dəyərli mənbələrlə yaxından tanış olmağa sövq edir. Bu sırada AMEA-nın həqiqi üzvü İsa Həbibbəylinin baş redaktorluğu ilə işıq üzü görmüş "Molla Nəsrəddin" ensiklopediyası, professor Hüseyn Həşimlinin, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Hüseyn Əsgərovun, şairlərdən Xanəli Kərimlinin, Asim Yadigarın kitabları və əsərləri barədəki fikirləri müəllifin ədəbi mühitimizlə yaxından maraqlanmasının ifadəsi kimi diqqəti çəkir.

Qocaman jurnalistin müəllifi olduğu kitabın növbəti fəsli "İnsanlar və talelər"dir. Bu fəsildə yer alan "Bir ziyalı ömrünə yazılanlar" adlı məqalədə 34 ildən artıq məktəb direktoru vəzifəsində çalışan, ömrünü şagirdlərinin yolunda şam kimi əridən Azərbaycan Respublikasının Əməkdar müəllimi İsa Hüseynovun həyat yolundan bəhs olunur. Hər bir insanda yüksək şüurun, Vətən sevgisinin, torpağa məhəbbətin və ali mənəviyyatın olmasını vacib bilən müəllif "Hər birimiz üçün 44 rəqəmi müqəddəslik rəmzinə çevrilib", "Ölüm sevinməsin qoy", "Vətən bir ocaqsa, şəhidlər oddur" adlı portret oçerklərdə Qarabağ döyüşlərində şücaət göstərmiş və qəhrəmancasına şəhid olmuş oğullarımızın yarım qalmış həyatını və keçdiyi şərəfli döyüş yolunu həssaslıqla qələmə alıb.

Kitabı vərəqlədikcə burada diqqəti bir amil cəlb edir. Müəllif baş vermiş hadisələri təhlil süzgəcindən keçirərək, ən incə detallara toxunaraq oxucuya faktlarla çatdırır. Kitabın "Müsahibələr" adlı fəsli muxtar respublikamızın inkişafında fədakar əməyi və zəhməti olan ziyalılarımızın, elm adamlarımızın tükənməz xəzinə olan dəyərli fikirləri, məsləhətləri oxucuların yolunu işığa, aydınlığa aparır. Burada diqqətçəkən məqalələrdən biri Azərbaycan Respublikasının Əməkdar elm xadimi, filologiya üzrə elmlər doktoru, professor, mərhum Hüseyn Həşimli ilə "Kitab mütaliəsi, müasir internet texnologiyaları və sosial media" adlı müsahibədir. Ali Məclis Sədrinin 2017-ci il 28 avqust tarixli "Oxunması zəruri olan kitablar haqqında" Sərəncamın təhlili üzərində qurulmuş müsahibədə Hüseyn Həşimlinin mütaliənin mahiyyəti, cəmiyyətdə yeri, insan həyatında əhəmiyyəti haqqında dəyərli məsləhətləri oxucunun mütaliəyə marağını və tələbatını artırmaqda mühüm rol oynayır.

"Həmkarlarım deyirlər ki"... Müəllifin xeyirxah insan, sədaqətli dost, vəfalı yoldaş olduğundan xəbər verən bu fəsildə isə təsirləndiyim yazılardan biri "Sizə kimdən danışım" adlı məqalə oldu. Müəllifi Azərbaycanın Əməkdar jurnalisti Mətanət Məmmədova olan "Naxçıvanın publisistik xəritəsi" kitabında da yer alan həmin məqalədə söz yükünün altına çiyinlərini verən Muxtar Məmmədovun ərtaf aləmdə olanları nə qədər gözəl müşahidə edib yazılarında sətirlədiyindən, muxtar respublikamızı qarış-qarış gəzib, abad, gözəl şəhər, kənd və rayonlarımızın sosial-iqtisadi, mədəni həyatını yazılarına köçürdüyündən, milli dəyərlərimizin, adət-ənənələrimizin çox yaxşı bilicisi olduğu üçün onu bu günə daşıdığından bəhs edilir.

Kitabı vərəqlədikcə Muxtar müəllimin qələm yoldaşlarının qələmə aldığı onunla bağlı fikirləri, xatirələri mətbuat fədaisinin nə qədər sədaqətli, sadiq, həssas, təvazökar, xeyirxah, yardımsevər insan olduğundan və həmin ülvi insani keyfiyyətləri ilə mənəvi ucalığın zirvəsini fəth etdiyindən xəbər verir.

*Deyirlər, çörəksiz yaşamaq olar, amma xeyirxah insanlarsız yaşamaq mümkün deyil. O insanın ki amalı, məqsədi, məsləki, əqidəsi, ancaq xeyirxahlığa yönəlib, çətinliyi olan hər kəsin əlindən tutub, dadına çatıb, ona ümid edənləri naümid qaytarmayıb, o insan əməli xeyirlə yoğrulmuş ali insandır. Qəzetimizin ağsaqqalı, qocamanı, nəsihətamiz fikirləri ilə biz gənclərin yoluna çıraq olan Muxtar Məmmədov da belə insanlardandır. Qəzetimizin "zərgəri" Muxtar müəllimi "Şərq qapısı" qəzetinin 100 illik yubileyinə həsr etdiyi "İllər, sizdə nəyim qaldı..." adlı söz xəzinəsinin işıq üzü görməsi münasibətilə təbrik edir və evimiz olan qəzetimizin neçə-neçə yubileylərinə neçə-neçə kitablar hədiyyə etməyini arzu edirik.*

**Gülcamal TAHİROVA**

## Gənclərin asudə vaxtının səmərəli təşkili diqqət mərkəzindədir

Ötən ay ərzində muxtar respublikanın turizm imkanlarının təbliği məqsədilə Ordubad və Culfa rayon gəncləri "Naxçıvanı tanıyaq!" devizi altında Şahbuz rayonundakı muzeylərə, muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrində təhsil alan əcnəbi tələbələr Naxçıvan şəhərindəki Atıcılıq Mərkəzinə ekskursiya ediblər. Naxçıvan Müəllimlər İnstitutunda Yeni Azərbaycan Partiyasının gənc üzvləri ilə, ali və orta ixtisas təhsili müəssisələrinin birinci kursuna qəbul olunmuş gənclərlə görüşlər, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı" kitabının Babək rayon gənclərinə təqdimatı, Azərbaycanın ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında keçirilən "Poliqon" strateji intellekt oyunu üzrə IV Universiadanın Naxçıvan Muxtar Respublikası üzrə seçim mərhələsi, istedadlı yeniyetmə və gənclərin üzə çıxarılması məqsədilə sağlamlıq imkanları məhdud uşaqlar ilə "Əl-ələ daha güclüyük!" adlı yaradıcılıq müsabiqəsi təşkil olunub.

Gənclərin qəhrəmanlarımızı daha yaxından tanımasına zəmin yaratmaq üçün onların şəhid ailələri ilə görüşü təşkil edilib, Milli qəhrəmanlarımızın gənclər arasında tanıdılması məqsədilə könüllü gənclər tərəfindən "Qəhrəmanlar unudulmur!" adlı videoçarxlar, Vətən müharibəsi şəhidlərinin yad edilməsi məqsədilə onların doğum günlərində fotoları nazirliyin rəsmi sosial şəbəkələrdəki hesablarında gündəlik olaraq paylaşılıb.

Ötən ay Naxçıvan Şəhər Üzgüçülük Mərkəzində Azərbaycan Milli Paralimpiya Komitəsinin stolüstü tennis üzrə milli komandasının baş məşqçisi Ruqiyyə Qubuşova və Əkbər Qubuşov tərəfindən muxtar respublikada stolüstü tennis idman növü ilə məşğul olan paralimpiyaçılar üçün təlim keçirilib, "Araz-Naxçıvan" peşəkar futbol klubunun qapıçı-məşqçisi AFFA tərəfindən icra olunan UEFA-nın qapıçılar üzrə "B" kateqoriyalı məşqçi kursunu tamamlayıb, Naxçıvan Şahmat Mərkəzində şahmat üzrə Azərbaycan milli komandasının üzvü, qrossmeyster Eltac Səfərli tərəfindən Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının məşqçi-müəllim və idmançılarına ustad dərsləri keçilib.

Hesabat dövründə bədən tərbiyəsi və idman sahəsində kütləviliyin artırılması, istedadlı idmançıların üzə çıxarılması, fiziki imkanları məhdud yeniyetmə və gənclərin reabilitasiyasının təmin olunması məqsədilə görmə məhdudiyyətli uşaqlar üçün qolbol idman növünün qaydaları və hazırlıq şərtləri haqqında, həmçinin Şərur rayonunda bədən tərbiyəsi və idmanın məhdud fiziki imkanlı şəxslərin reabilitasiyasında əhəmiyyəti ilə bağlı maarifləndirici görüşlər, yeniyetmə və gənclər arasında şahmat, cüdo, basketbol, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında stend atıcılığı, oğlan və qız atletlər arasında kross qaçışı, mağara (spelio) idman yürüşü, "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə Naxçıvan Muxtar Respublika birincilikləri keçirilib. Bundan başqa, Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş şəhid və qazi övladları üçün ekskursiya və əyləncəli oyunlar təşkil olunub, Naxçıvan Güləş Federasiyasının Culfa rayonunun Əbrəqunus, Yaycı və Ərəzin kəndlərində cüdo, Babək rayonunun Kültəpə, Nəhəcir kəndlərində və Kəngərli rayonunda sərbəst güləş üzrə bölmələri fəaliyyətə başlayıb, Şərur rayon "Ümid" atıcılıq klubunun və Naxçıvan şəhərində qolbol bölməsinin fəaliyyəti yenidən bərpa olunub, Paralimpiya Federasiyasının Şərur rayonunda ağırlıqqaldırma və stolüstü tennis üzrə yeni bölmələri yaradılıb.

Muxtar respublika idmançılarının ölkə və beynəlxalq səviyyəli yarışlarda iştirakı təmin edilib, Ağdam Olimpiya İdman Kompleksində keçirilən ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş universal döyüş növləri üzrə turnirdə Naxçıvan Kikboksinq Federasiyası idmançıları 35 kiloqram çəki dərəcəsində Fərid Orucov, 45 kiloqram çəki dərəcəsində Sadiq Kərimov və Uğur Əliyev, 65 kiloqram çəki dərəcəsində Rəhim Əşrəfov I, 35 kiloqram çəki dərəcəsində Sərdar Qurbanov, 40 kiloqram çəki dərəcəsində Əbülfəz Cəfərov, 50 kiloqram çəki dərəcəsində İbrahim Əlizadə və İsmayıl Hüseynzadə, 55 kiloqram çəki dərəcəsində Məhəmmədəli Qasımov, 60 kiloqram çəki dərəcəsində Səhət Əsədov II, 30 kiloqram çəki dərəcəsində Nurəddin Əliyev və İlqar Səfərli, 35 kiloqram çəki dərəcəsində Rəhim Quluzadə, 45 kiloqram çəki dərəcəsində Şahin Səfərli və 75 kiloqram çəki dərəcəsində Fuad Quliyev III yerlərə layiq görülüblər.

Ötən ay dahi şəxsiyyətlərimizin tanıdılması, xalqımızın qədimdən bu günə miras kimi saxladığı milli-mənəvi dəyərlərə bağlılıq hissinin möhkəmləndirilməsi məqsədilə muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları üçün mütəmadi təşkil olunan ənənəvi ekskursiyalar davam etdirilib. Güləş, Boks və Şahmat federasiyalarının təmsilçiləri müvafiq olaraq Duz Muzeyində, Yusif Küseyir oğlu türbəsində və Milli Dəyərlər Muzeyində olublar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Gənc startapçı: "Müsabiqənin final mərhələsində qalib olacağımıza inanıram"

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamı muxtar respublikamızda kifayət qədər istedadlı, bacarıqlı, müasir düşüncəli gənc startapçıların yetişməsinə böyük stimul oldu. Onlar hazırladıqları layihələrlə ölkəmizin daha da inkişafına çalışırlar. Naxçıvanlı gənc İsmayıl Əliyevin layihəsi də məhz bu məqsədə xidmət edir.*

O, 2000-ci ildə Bakı şəhərində anadan olub. Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin məzunudur. Gənc startapçı Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin İnformasiya texnologiyaları ixtisası üzrə IV kurs tələbəsidir. Onun rəhbəri olduğu startap layihəsi respublika üzrə 95 layihə arasından seçilərək finala yüksələn 7 layihədən biridir.



İsmayıl deyir ki, layihə "Azərbaycanda elektron ticarət" adlanır: – Dünyada, eləcə də ölkəmizdə elektron ticarət sürətlə inkişaf edir. Müştərilər vaxt itirməmək, minlərlə, yüz minlərlə məhsul çeşidini bir yerdə görmək məqsədilə elektron ticarət platformalarından istifadə edirlər. Bu sektor gələcək dövrlərdə də özünü inkişaf etdirəcək və daha çox müştərini ətrafına toplayacaqdır. Bizim də layihəmizin məqsədi Azərbaycanda elektron ticarəti inkişaf etdirmək və müştərilərin xarici elektron ticarət platformalarından deyil, yerli platformadan istifadə etmələrini təmin etməkdir. Başlanğıcda Azərbaycan daxilində xidmət göstərib, daha sonra qonşu ölkələr və qlobal miqyasda xidmətimizi davam etdirəcəyik.

Adıçəkilən layihəni komanda şəklində işləmişik. Bu il avqustun 16-da layihənin biznes planına uyğun olaraq qurduğumuz şirkət "Fürsət" MMC olaraq qeydiyyatdan keçib. Vebsaytımız *(fursetshop.com)* açıqdır və mobil tətbiq playstorda öz yerini alıb. Burada hər hansı xidmət və ya məhsul satıcı ilə birbaşa ünsiyyətdə olmadan internet vasitəsilə satın alınır. Müştərilər vebsayta daxil olmaqla xidmət şərtləri barədə ətraflı məlumat ala, almaq istədiyi məhsul və ya xidməti seçərək ödəniş edə bilərlər. Bu zaman satıcı alınmış məhsul və ya xidməti müştəriyə çatdırır.

"Xidmətimiz elektron ticarət üzrə pərakəndə satış sektorunda öz yerini alıb", – deyən müsahibim onu da bildirir ki, rəqabətdə əsas üstünlüyümüz məhsulların birbaşa istehsalat firmalarından alınaraq platformaya yerləşdirilməsi və qiymətlərin ucuz olmasıdır. İkinci bir üstünlüyümüz mobil tətbiqimizdir. Platformamızda məhsullar mütəmadi olaraq yenilənəcək və yeni çeşiddə məhsullar əlavə olunacaq. Hər fəsil üçün xüsusi məhsul növləri hazırlanacaq. Fərqli çeşiddə məhsulların olması həm uşaqlar, həm ortayaşlı insanlar, həm də yaşlı insanlar üçün alış-verişi əlçatan edəcək.

İsmayıl Əliyev onu da diqqətimizə çatdırır ki, hazırladıqları layihə bu il Naxçıvan Dövlət Universitetində keçirilən startap turunda III yerə layiq görülüb: – Oktyabrın 16-sı Bakı şəhərində EKVITA və KOBİA-nın dəstəyi ilə Avropa İttifaqının maliyyələşdirdiyi "İdeyadan uğurlu biznesə" startap müsabiqəsində layihəmiz Azərbaycan üzrə təqdim edilən 95 layihədən ilk 7 yerdə qərarlaşıb və yarımfinal qalibi olmuşuq. Bu yaxınlarda Bakı şəhərində müsabiqənin final mərhələsi keçiriləcək, qaliblər bəlli olacaqdır. Final mərhələsində də qələbə qazanacağımıza inanırıq.

Biz də bu innovativ düşüncəli gəncə, gələcəyin uğurlu sahibkarına fəaliyyətində müvəffəqiyyətlər arzu edirik.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Erasmus+ ECAR layihəsi çərçivəsində tədbirlər keçirilib



*Bakı Ali Neft Məktəbinin ev sahibliyi etdiyi Avropa İttifaqının maliyyə dəstəyi ilə həyata keçirilən Erasmus+ KA2 proqramı çərçivəsində "Azərbaycanda rektorlar konfransının yaradılması" (ECAR) layihəsinin monitorinqi aparılıb. Görüşdə layihənin koordinatoru və Erasmus+ Milli Ofisindən nümayəndələrlə yanaşı, layihədə tərəfdaş olan Azərbaycan universitetlərindən rektorlar və prorektorlar da iştirak ediblər.*

Görüşdə "Naxçıvan" Universitetinin də partnyor olduğu bu layihənin adıçəkilən seminarında universitetin rektoru Nurlana Əliyeva və Tədris və tərbiyə işləri üzrə prorektoru Hüseyn Bağırsoylu iştirak ediblər. Monitorinq zamanı layihənin WP1 (İş Paketi1) üzrə görülmüş işlərin nəticələri geniş müzakirə olunub, bununla bağlı hazırlanan content analiz seminarda iştirak edən Azərbaycan universitetlərinin rektorlarına təqdim edilib. Daha sonra prorektorlar ilə diskussiya aparılıb.

Qeyd edək ki, "Naxçıvan" Universitetinin tərəfdaşı olduğu Erasmus+ ECAR layihəsi menecerlərinin Bakı Biznes Universitetində dəyirmi masa arxasında görüşü keçirilib. Bakı Biznes Universitetinin koordinatoru olduğu bu layihənin görüşündə "Naxçıvan" Universiteti də daxil olmaqla ölkənin ali məktəblərindən olan 15 tərəfdaş universitetin nümayəndələri və avropalı tərəfdaşlar iştirak edib.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

## İdmançılar mükafatlandırılıb



*Dünən Sədərək Rayon Şahmat Məktəbində şahmat dərsini tədris edən müəllimlər və şahmatçı şagirdlərlə görüş keçirilib.*

Sədərək Rayon İcra Hakimiyyətinin başçısı, Şahmat Federasiyasının rayon bölməsinin sədri Mahirə Adnayeva tədbirdə çıxış edərək vurğulayıb ki, muxtar respublikada şahmat hərəkatı son vaxtlarda geniş vüsət alıb. Ümumtəhsil məktəblərində şahmatın tədrisi üçün xüsusi siniflər ayrılıb və şahmat müəllimlərinin növbəti sertifikasiya imtahanı həyata keçirilib. Şahmatın tədrisi səviyyəsinin yüksəldilməsi təkcə müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması ilə məhdudlaşmır. Eyni zamanda ümumtəhsil məktəblərində şahmat fənninə dair dərslik, dərs vəsaiti və digər tədris-metodik ədəbiyyatlarla təmin olunması da diqqətdə saxlanılır. Şahmat Federasiyası tərəfindən şahmatın əsaslarının şagirdlərə öyrədilməsində müəllimlərə yaxın köməkçi olan kitablar nəşr olunaraq ümumtəhsil məktəblərinə verilib.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə idmanın inkişafı ilə bağlı tapşırıqlar verilib, qarşıya mühüm vəzifələr qoyulub. Sədərək Rayon İcra Hakimiyyəti də bu məsələni diqqətdə saxlayıb, rayonda gənclərin idmana və şahmata cəlbi sahəsində işlər görülüb. Həmçinin şahmat idman növünün kütləvi hal alması üçün federasiyanın rayon bölməsi Təhsil Şöbəsi ilə birgə tempo yarışları, rayon birincilikləri, Türkiyənin şəhər və rayonları, Pakistanın Şahmat məktəb və mərkəzləri, Azərbaycanın şəhər və rayonlarının şahmat məktəblərinin şagirdləri arasında onlayn yoldaşlıq görüşləri keçirib və bu yarışlarda şahmatçı şagirdlərimizin iştirakları təmin olunub.

Vurğulanıb ki, rayonda şahmatın daha da inkişaf etdirilməsi məqsədilə kiçikyaşlı istedadlı şahmatçıların seçilib üzə çıxarılması və komanda şəklində formalaşması daim diqqət mərkəzində saxlanılmalı, dərsdən sonra şagirdlərlə əlavə şahmat məşğələləri keçirilməli, Sədərək rayonunun şahmatçı şagirdlərinin də yarışlarda fəallıqla iştirak etməsi təmin olunmalıdır.

Sədərək Rayon İcra Hakimiyyətinin başçısı rayonda şahmatın inkişafına göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığını bildirib.

Çıxışlarda diqqətə çatdırılıb ki, Türkiyə Şahmat Federasiyanın təşkilatçılığı ilə 13-18 sentyabr 2021-ci il tarixlərdə Kırşehir "2021 Uluslararası Ahilik Yılı Açık Satranç Turnuvasında" 10 yaşlı şahmatçılar arasında Sədərək Rayon Şahmat Məktəbinin şahmatçı şagirdi Anar İbrahimzadə 3-cü yerə layiq görülüb. Karate üzrə 11-ci Dünya Şotokan Çempionatında iştirak edən Məhəmməd Bağırov və Canər Abbaszadə müvafiq olaraq II-III yerlərin sahibi olublar.

Tədbirin sonunda ölkə və beynəlxalq yarışlarda uğurlu nəticələrə görə 7 idmançıya və 2 məşqçi-müəllimə mükafat təqdim edilib.

## İstehsalat təcrübəsinə həsr edilmiş başlanğıc konfransı



*Naxçıvan Muxtar Respublikası Turizm Departamentində "Naxçıvan" Universitetinin Turizm və otelçilik ixtisası üzrə təhsil alan IV kurs tələbələri üçün 2020-2021-ci tədris ilinin payız semestrindəki istehsalat təcrübəsinə həsr olunmuş başlanğıc konfransı keçirilmişdir.*

Konfransı giriş sözü ilə departamentin direktoru Əkbər Novruzov açaraq bildirmişdir ki, ali məktəb tələbələrinin tədris prosesinin vacib istiqamətlərindən biri istehsalat təcrübəsidir. Bu təcrübələrin əsas məqsədi tələbələrin ilboyu auditoriyalarda əldə etdiyi nəzəri biliklərin təcrübə ilə vəhdətdə daha dərindən öyrənilməsi, onların peşəkar kadr kimi yetişməsindən ibarətdir.

Konfransda "Naxçıvan" Universitetinin müəllimi, təcrübə rəhbəri Ülviyyə Əliyeva və Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin Statistika və Sertifikatlaşdırma sektorunun müdiri Süleyman Rüstəmov çıxış etmişlər.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılmış, turizm potensialını əks etdirən videoçarx nümayiş etdirilmişdir.

## *"Mərmidən xatirələr"* kitabının təqdimatı olub



Naxçıvanda gənc yazıçı Abdulla Quliyevin Vətən müharibəsinə Əlahiddə Ümumqoşun Ordu sıralarından yollanan və 44 günlük Vətən müharibəsində rəşadət göstərərək Şuşaya qədər döyüş yolu keçən qazilərdən bəhs edən "Mərmidən xatirələr" kitabı təqdim olunub.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, yazıçı-publisist, şair Asim Əliyev və digər çıxış edənlər kitabın məziyyətlərindən bəhs edib, nəşrin qəhrəmanlarımızın keçdiyi döyüş yolunun gələcək nəsillərə çatdırılması baxımından əhəmiyyətli olduğunu vurğulayıblar.

Yazıçılar Birliyi üzvlərinin, ictimaiyyət nümayəndələrinin və Vətən müharibəsi iştirakçılarının qatıldığı tədbirdə Təbriz Zeynalov qazilər adından minnətdarlıq edib, Vətənə, torpağa sevgini ifadə edən kitabın önəmini qeyd edib.

Çıxışların ardından imza günü keçirilib.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Atıcılıq Mərkəzində keçirilən birincilik I və II Qarabağ müharibələrində iştirak edən hərbçilərimiz arasında keçirilib. Məqsəd onların arasında atıcılıq idman növlərinin təbliği, ən yaxşı atıcıların müəyyən edilməsi və asudə vaxtlarının səmərəli təşkilindən ibarət olub.*

şəhid ailələri, o cümlədən sağlamlıq imkanları məhdud şəxslər yüksək dövlət qayğısı əhatəsindədirlər.

Çıxışlarda unikal idman məkanlarından biri kimi Atıcılıq Mərkəzinin üstünlüklərindən bəhs olunub. Vurğulanıb ki, mərkəzdə stend və sportinq atıcılığı, oxatma, tir atıcılığı və

## Peyntbol üzrə muxtar respublika birinciliyi



Muxtar respublikanın şəhər və rayonlarından 8 komanda qələbə uğrunda mübarizə aparıb. Olimpiya sisteminə əsasən keçirilən birincilikdə Naxçıvan komandası qalib adını qazanıb. Culfa və Kəngərli komandaları müvafiq ardıcıllıqla ikinci və üçüncü sıralarda qərarlaşıblar.

Mükafatlandırma mərasimində Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı, Atıcılıq Federasiyasının sədri Səhət Həbibbəyli və Paralimpiya Federasiyasının sədri Nicat Babayev iştirakçıları təbrik edib, Vətənimizin bütövlüyü uğrunda göstərdikləri şücaətə görə minnətdarlıqlarını bildiriblər. Qeyd olunub ki, Ali Məclis Sədrinin rəhbərliyi ilə muxtar respublikamızda peyntbol yarışlarının keçirilməsi üçün əlverişli şərait yaradılıb. Azərbaycan Ordusunun şanlı qələbəmizlə bitən 44 günlük Vətən müharibəsində nümayiş etdirdiyi yüksək peşəkarlıq, rəşadət, döyüş ruhu əhali arasında bu tipli idman növlərinə marağı artırıb. Belə mərkəzlərin yaradılması gənc nəslin vətənpərvərlik ruhunda yetişdirilməsində önəmli rola malikdir.

Çıxışların ardınca mükafatlar təqdim edilib. İlk üçlükdə qərarlaşan komandalar diplom, xatirə barelyefi və hədiyyələr, əlavə olaraq komandalara ödənişsiz peyntbol oyunu üçün kupon hədiyyə olunub.

Qeyd edək ki, birincilik Gənclər və İdman Nazirliyi, Atıcılıq və Paralimpiya federasiyalarının birgə təşkilatçılığı ilə keçirilib.

## Naxçıvan idmançıları İstanbul Marafonunda uğurlu nəticələr göstərib




Türkiyədə 43-cü İstanbul Marafonu keçirilib. "Dünyanın qitələrarası yeganə marafonu" adlandırılan, Dünya Atletika Birliyi tərəfindən "qızıl kateqoriya"da göstərilən nüfuzlu tədbirə 100-dən çox ölkədən 20 min idmançı olmaqla, ümumilikdə, 40 min nəfər qatılıb.

Naxçıvan Atletika Federasiyasının idmançılarından Əmrah Nağıyev və Miryusif Seyidov da marafona qatılıblar. Əmrah tam məsafə – "42 kilometr" kateqoriyası üzrə mübarizə aparıb. Təmsilçimiz finişə 120-ci (kişilər arasında) olaraq çatıb. 3 saat 21 dəqiqə 27 saniyəlik göstəriciyə nail olan gənc atlet bu nəticə ilə Azərbaycan idmançıları arasında birinci olub.

"15 kilometr" kateqoriyasında gücünü sınayan Miryusif Seyidov 1 saat 10 dəqiqə 59 saniyəlik göstərici ilə 296-cı (kişilər arasında), azərbaycanlı idmançılar arasında isə ikinci olub.

İdmançılarımız marafonun medalları ilə mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## 2 milyon 643 min kvadratmetrdən çox sahə dezinfeksiya edilib



***Naxçıvanda infeksiyaların, yoluxucu xəstəliklərin yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə növbəti genişmiqyaslı dezinfeksiya tədbirlərinə başlanılıb. Tibbi-profilaktik tədbirlər noyabrın 21-dək davam etdiriləcək.***

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi, Gigiyena və Epidemiologiya Mərkəzinin və Dövlət Baytarlıq Xidmətinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında viruslara yoluxmanın qarşısının alınması, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə növbəti intensiv qabaqlayıcı profilaktik tədbirlərə başlanılıb. Xüsusilə insanların intensiv istifadə etdiyi mərkəzlərdə dezinfeksiya işləri icra edilir.

Bu məqsədlə tərtib olunan qrafik əsasında səhər saatlarından etibarən Fövqəladə Hallar Nazirliyinin 5 xüsusi təyinatlı avtomobilinin iştirakı ilə Naxçıvan şəhərinin avtomobil yolları dərmanlanıb. Belə ki, şəhərin Heydər Əliyev prospekti, Əziz Əliyev, Cəlil Məmmədquluzadə, İstiqlal, Nəsrəddin Tusi, Atatürk, İdris Məmmədov və digər küçələrinin avtomobil yolları və piyada səkiləri dezinfeksiya olunub. Şəxsi heyətin iştirakı ilə Heydər Əliyev Muzeyinin, Naxçıvan Dövlət Musiqili Dram Teatrının, İstiqlal və Çənlibel məhəllələrindəki yaşayış binalarının girişi, ətrafı və zirzəmiləri, "Görüş yeri" kafesi, Əyləncə adası və Sahil Parkı istirahət mərkəzləri, Avtovağzal Kompleksi, ticarət və alış-veriş mərkəzləri, marketlər, bazarlar və digər ictimai yerlər və ətrafı dərmanlanıb. Ümumilikdə, Naxçıvan şəhərində 1 milyon 808 min kvadratmetrdən çox ərazidə dezinfeksiya işləri aparılıb.

Əhalinin yoluxucu xəstəliklərdən qorunması istiqamətində dərmanlama tədbirləri muxtar respublikanın rayonlarında da həyata keçirilib. Qrafik əsasında Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək rayonlarının avtomobil yolları 7 xüsusi texnikanın köməyi ilə dezinfeksiyaedici maddələrlə yuyulub. Həmçinin ictimai yaşayış binalarında, ticarət mərkəzlərində, avtovağzallarda, uşaq bağçalarında, tibb müəssisələrində, kənd mərkəzlərində, məscidlərdə, mərasim evlərində, insanların sıx toplaşdıqları digər yerlərdə dezinfeksiyaedici maddələrlə tibbi-profilaktik tədbirlər həyata keçirilib.

Ümumilikdə, muxtar respublikanın rayonlarında 835 min kvadratmetrdən çox sahədə dezinfeksiya işləri aparılıb.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Şərur rayonunun Xanlıqlar kənd sakini Ələkbərov Nurəli Abuzər oğlunun adına olan JN-54B inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Rəşidov Qeybəli Yusif oğlunun adına olan 0300163502 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

***

Naxçıvan Doğum Mərkəzinə məxsus 75-AC-208 nömrəli avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Mədəti Günel Eldəniz qızının adına "Naxçıvan" Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 946